# Azərbaycanın ilk kənd uşaq musiqi məktəbi

**Qarabağ Azərbaycanın qədim tarixə malik ərazilərindəndir. Bu yerlər təbii sərvətlərinin zənginliyi, gözəlliyi ilə bərabər, həm də mədəni-maarif sahəsində də mühüm rol oynamışdır. Bölgənin ayrı-ayrı yerlərində doğulub, boya-başa çatmış musiqiçilər, sənət adamları Azərbaycanla yanaşı, Qafqazda və dünyanın bir çox ölkələrində mədəniyyətimizi layiqincə təmsil etmişlər. Qarabağ - Natəvanın, Vaqifin, Zakirin, Əbdürrəhim bəy Haqverdiyevin, Üzeyir Hacıbəyovun, Bülbülün, Xan Şuşinskinin, Cabbar Qaryağdıoğlunun vətənidir. Qarabağ musiqi beşiyidir. Üzeyir Hacıbəyov kimi böyük bəstəkarlar, xanəndələr milli musiqimizin inkişaf və təşəkkülündə böyük xidmətlər göstərmişlər. Əbəs yerə deməyiblər: "Qarabağda hamının gözəl səsi olur, hətta körpələr muğam üstə ağlayıb, gülürlər".**

Qarabağ deyəndə təkcə unikal təbiətə malik bir bölgə, ölkənin təbii abidələri siyahısına daxil edilmiş landşaftlar deyil, həm də istedadlı şairlər, yazıçılar, musiqiçilər, xanəndələr yada düşür. Burada yetişən sənətkarların, elm-mədəniyyət xadimlərinin inkişafında qədim təhsil ocaqlarının rolu böyük olub. Hələ əsrlər əvvəl bölgədə fəaliyyət göstərən məktəb və mədrəsələr xalqın təhsilə yiyələnməsində xüsusi önəm daşımışdır. XIX əsrin ikinci yarısında Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri, cəmiyyətləri, dərnəkləri təşkil olunmuşdur. Bakıda Məşədi Məlik Mənsurovun məclisi, Şamaxıda Mahmud Ağanın, Qarabağda - Şuşada isə Xarrat Qulu Məhəmməd oğlunun və Mir Möhsün Nəvvabın musiqi məclislərinin musiqimizin inkişafında önəmli rolu olmuşdur.



Böyük mədəniyyətə və musiqi tarixinə sahib ölkəmizdə ilk musiqi məktəbi 1923-cü ildə bəstəkar Məşədi Cəmil Əmirovun təşəbbüsü, Üzeyir Hacıbəyovun və Bülbülün köməkliyi ilə Gəncədə açılmışdır. Hazırda məktəb Fikrət Əmirov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi kimi fəaliyyətini davam etdirir.

XX əsrin əvvəlində Qarabağda çox sayda ziyalı yetişərək Azərbaycanın elm, mədəniyyət sahəsində xidmət etməyə başlamışdır. Qarabağın dilbər guşələrindən olan, aranla dağ zonasını özündə birləşdirən Ağdam Azərbaycan musiqi tarixində mühüm əhəmiyyətə malikdir. Təbiətin heç nəyi əsirgəmədiyi bu ərazidə təmiz hava, saf, göz yaşı kimi duru bulaqlar və torpağın qüdrəti sayəsində gözəl səsə sahib sənətkarlar yetişmişdir. Muğam ifaçıları, xanəndələr dünya şöhrəti qazanaraq planetin hər qarışında ölkəmizi təmsil etmişlər.

Rayonun demək olar ki, hər kəndində musiqi məktəbi var. Sovet dövründə Azərbaycanda ilk kənd uşaq musiqi məktəbi məhz Qaradağlı kəndində fəaliyyətə başlayıb. Buna qədər isə SSRİ-də ilk dəfə Ukraynada açılıb.

Qaradağlı kənd uşaq musiqi məktəbinin yaranmasına səbəb isə kənddə olan istedadlı uşaqların çoxluğundan irəli gəlir. Kənd ziyalıları, xüsusilə də Turaf Məmmədovun təşəbbüsü ilə hökumətə müraciət olunur və kənd musiqi məktəbinin açılmasını xahiş edirlər. Ölkədə ilk kənd uşaq musiqi məktəbi 1969-cu ildə fəaliyyətə başlayır. İlk olaraq məktəbdə fortepiano və tar ixtisası üzrə 18 şagird təhsil alır. Yarandığı gündən indiyə kimi kifayət qədər musiqiçi yetişdirən məktəbin məzunları bu gün musiqi mədəniyyətinə öz töhfələrini veriblər. Muğam ifaçısı Vahid Abdullayev, Sahibə Əhmədova, tar müəllimi Cəbrayıl Göyüşov, Hüseyn Hüseynov da bu məktəbin yetirmələri olmuşdur.

Ötən əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti Qaradağlı kənd uşaq musiqi məktəbinə də təsir göstərmişdir. Ard-arda işğal edilən kəndlərin, şəhərlərin əhalisi yaxın ərazilərə sığınmış, məcburi köçkün həyatı yaşamışlar. Belə ki, Birinci Qarabağ müharibəsi zamanı məktəb binasında qaçqın və məcburi köçkünlər məskunlaşmışlar. Müharibənin ən qaynar vaxtlarında, amansız döyüşlərin getdiyi bir zamanda isə "N" saylı hərbi hissənin kazarması olmuşdur. Birinci Qarabağ müharibəsi zamanı məktəbin məzunu Samir Abdinov, 44 günlük Vətən müharibəsində isə Elvin İsizadə torpaqlarımız uğrunda döyüşlərə qatılmış və şəhidlik zirvəsinə yüksəlmişlər.

1990-1997-ci illərdə məktəb kənddəki uşaq bağçasında fəaliyyət göstərmişdir. Hazırda müəllim kollektivinin demək olar ki, hamısı məktəbin məzunlarından ibarətdir. Məktəbin direktoru Fəqani Qarayev, Radmila Məmmədova (fortepiano), Rafiq Ağaməmmədov, Elşən Məmmədov (tar), Seymur İmanov (qarmon), Mehman Məmmədov (xanəndə) gənc nəslə musiqinin sirlərini aşılayırlar. Bu gün məktəbdə 148 şagirdə 55 müəllim tərəfindən fortepiano, tar, qarmon, nağara, xanəndəlik və balaban ixtisasları üzrə musiqi təhsili verilir. Kollektiv rayonda keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirak edir. Məktəbin xor kollektivi isə respublika və rayon səviyyəli müsabiqələrdə uğurlu çıxışı ilə tanınır. Qaradağlı kənd uşaq musiqi məktəbi ölkədə keçirilən bir çox tədbir və müsabiqələrdə iştirak edir və yetirmələri uğurlar qazanır. Məzunlar arasında hər il Azərbaycan Milli Konservatoriyasının tələbəsi adını qazananlar olur. Ötən il Ağdam rayonu Qaradağlı kənd uşaq musiqi məktəbinin 55 illik yubileyi Qarabağ Regional Mədəniyyət İdarəsi tərəfindən qeyd edilmişdir.

Qaradağlı kəndində həyat öz axarı ilə davam edir. Bütün sahələrdə olduğu kimi, mədəniyyət aləmində də keçmiş ənənələr bərpa edilir. Şuşada "Vaqif Poeziya Günləri", "Xarıbülbül musiqi festivalı" və digər tədbirlər keçirilir. Yaxın gələcəkdə ağ damların ucaldığı məkanda muğam müsabiqələri, musiqi festivalları öz möhtəşəmliyi ilə yeni ruh, abhava yaradacaq.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 17 yanvar (№ 10).- S.11.